UOT: 39
Vəfa HƏSƏNOVA
Milli Azərbaycan Tarixi Muzeyi, mütəxəssis
hesenovavefa795@gmail.com
https://doi.org/10.61226/12.3.4.2023.9

AZƏRBAYCAN XALQ MUSİQİSİ QURBAN PİRİMOV YARADICILIĞINDA

Xülasə: Məqalədə Azərbaycan xalq musiqisi və milli çalğı alətləri nəzərdən keçirilir. Eləcə də Azərbaycan musiqisinin inkişaf tarixi, Qarabağ musiqisinin Azərbaycan musiqisinin inkişafına təsiri göstərilmişdir. Həmçinin Azərbaycan musiqisinin inkişafında xalq musiqi yaradıcılarının, eyni zamanda xanəndələrinin böyük xidmətləri, zəngin musiqi irsinə malik Azərbaycan xalqının milli ruhunu oxşayan və ürəkləri ecazkar səsi ilə riqqətə gətirən Azərbaycan tarı və XX əsr Azərbaycan musiqi mədəniyyətinin görkəmli xadimləri içərisində istedadlı ifaçı və mahir tarzən Qurban Pirimovun həyat və yaradıcılığı öz əksini tapmışdır. Musiqi tariximizdə məşhur olmuş Mirzə Sadıqcandan sonra, Qurban Pirimov ilk solo ifa edən tarzən olmuşdur. Xalqın mənəvi aləmini tar havaları ilə zənginləşdirən Qurban Pirimov öz ifaları ilə Azərbaycan musiqi mədəniyyətini bir çox ölkədə təbliğ etmişdir. Tarda milli mənsubiyyətindən asılı olmayaraq istər klassik, istərsə də müasir üslubda səslənən xalq və bəstəkar mahnılarını, rəqslərini ifa etmək imkanları başqa alətlərlə müqayisədə daha genişdir. Belə ki, o, həm solo, həm üçlükdə, həm də orkestr tərkibində fəaliyyət göstərmişdir. Qurban Pirimov dramatik və musiqili səhnə əsərlərində tarda ifa etmişdir. Məqalədə Qurban Pirimovun Azərbaycan musiqisinə verdiyi töhfə elmi cəhətdən dolğun olaraq işıqlandırılmış, həyat və yaradıcılığı, həmçinin zəngin musiqi irsi haqqında xeyli məlumat öz əksini tapmışdır. Eyni zamanda tədqiqata Milli Azərbaycan Tarixi Müzeyinin zəngin kolleksiyasına daxil olan Qurban Pirimova məxsus materiallar da cəlb olunmuşdur.

Açar sözlər: Azərbaycan musiqisi, Qarabağ, Qurban Pirimov, çalğı alətləri, musiqi, mədəniyyət, tar, tarzən.

Vafa HASANOVA

AZERBAIJANI FOLK MUSIC IN THE WORKS OF GURBAN PIRIMOV

Abstract: The article gives a brief overview of Azerbaijani folk music and national musical instruments. In the historical development of Azerbaijani music, the influence of Karabakh music on the overall development of Azerbaijani musical art is considered. Along with this, the role and merits of the creators and singers of folk music in the development of Azerbaijani music are shown. The role of the Azerbaijani national instrument tar, which conveys the national spirit of the Azerbaijani people, is especially emphasized. The article reflects the life and work of the skillful and talented performer Gurban Pirimov. The research involved museum materials of Gurban Pirimov from the collection of the National Museum of History of Azerbaijan.Gurban Pirimov, after Mirza Sadygzhan, who became famous in our musical history, became the first Tarzan which performed solo. Enriching the spiritual world of the people with tar melodies, Gurban Pirimov promoted Azerbaijani musical culture in many countries with his performances. Regardless of nationality, the possibilities for performing in tar classical and modern folk and composer songs and dances are wider than with other instruments. Thus, he performed solo, in a trio, and as part of an orchestra. Gurban Pirimov played the tar in dramatic and musical productions. The article scientifically fully covers the contribution of Gurban Pirimov to the music of Azerbaijan, reflects a lot of information about his life and work, as well as his rich musical heritage. At the same time, the research also involved materials belonging to Gurban Pirimov, which are part of the rich collection of the National Museum of History of Azerbaijan.

Keywords: Azerbaijani music, Karabakh, Gurban Pirimov, musical instruments, music, culture, tar, tarzan.

Вафа ГАСАНОВА

АЗЕРБАЙДЖАНСКАЯ НАРОДНАЯ МУЗЫКА В ТВОРЧЕСЕСТВЕ ГУРБАНА ПИРИМОВА

Абстракт: В статье дается краткий обзор азербайджанской народной музыки и национальных музыкальных инструментов. В историческом развитии азербайджанской музыки, рассматривается влияние карабахской музыки на всеобщее развитие азербайджанского музыкального искусства. Наряду с этим показана роль и заслуги создателей и певцов народной музыки в развитии азербайджанской музыки. Особо подчеркивается роль азербайджанского национального инструмента тара, передающего национальный дух азербайджанского народа. В статье нашли свое отражение жизнь и творчество искусного и талантливого исполнителя Гурбана Пиримова. К исследованию привлечены музейные материалы Гурбана Пиримова из коллекции Национального музея истории Азербайджана. Гурбан Пиримов после прославившегося в нашей музыкальной истории Мирзы Садыгжана стал первым тарзаном, выступившим сольно. Обогащая духовный мир народа мелодиями тара Гурбан Пиримов своими выступлениями пропагандировал азербайджанскую музыкальную культуру во многих странах. Независимо от национальности возможности исполнения классических и современных народных и композиторских песен и танцев шире, чем на других инструментах. Таким образом, он выступал и сольно, и в трио, и в составе оркестра. Гурбан Пиримов играл на таре в драматических и музыкальных постановках. В статье научно полно освещен вклад Гурбана Пиримова в музыку Азербайджана, отражено много информации о его жизни и творчестве, а также богатом музыкальном наследии. При этом в исследовании были также задействованы материалы, принадлежащие Гурбану Пиримову, входящие в богатую коллекцию Национального музея истории Азербайджана.

Ключевые слова: азербайджанская музыка, Карабах, Гурбан Пиримов, музыкальные инструменты, музыка, культура, тар, тарзан.

Azərbaycan xalqı tarixi, maddi mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənət və mədəniyyəti ilə daima seçilmişdir. Odlar yurdu Azərbaycan sehrkar musiqi diyarı kimi də məşhurdur. Musiqi istər şən günlərdə, bayramlarda, istərsə də ağır və iztirablı vaxtlarda xalqa mənəvi dayaq olmuş, ruh yüksəkliyi vermişdir. Belə ki, tarixdən süzülüb gələn Azərbaycan musiqisi gələcəyə böyük inam hissi, nikbinlik, insanı cəsur, mübariz olmağa ruhlandıran motivlərlə doludur.

Milli notlarla, həzin melodiya ilə məşhurlaşan Azərbaycan musiqisi həm də qabaqcıl dünya mədəniyyətinin gözəl ənənələrindən də müəyyən dərəcə təsirlənmiş, daha da inkişaf edib müasir səviyyəyə çatmışdır. Şübhəsiz demək olar ki, dünyanın mütərəqqi musiqi mədəniyyəti xəzinəsini öz nadir inciləri ilə zənginləşdirən Azərbaycan musiqisinin inkişafında xalq musiqisi yaradıcılarının, eyni zamanda xanəndələrinin böyük xidmətləri olmuşdur [45, s.6]. Azərbaycan musiqi mədəniyyəti dərin köklərə, çoxəsirlik ənənələrə və qədim tarixə malikdir. Görkəmli incəsənət ustaları, xalq çalğı alətləri ifaçıları, xüsusilə xalq xanəndələri bu ənənələri yaşadaraq nəsildən-nəsilə ötürmüş və böyük irs yaratmışlar [45, s.2].

Azərbaycan musiqi tarixində Qarabağ musiqisi də öz qədimliyi və özünəməxsusluğu ilə seçilir. XIX əsr Qarabağ musiqi mədəniyyətinin təhlili göstərir ki, o, bütövlükdə Azərbaycan mədəniyyətinin, əsasən, musiqi sənətinin inkişafında xüsusi bir mərhələdir [25, s.5]. Qarabağ Azərbaycanla yanaşı dünya musiqi xəzinəsinə neçə-neçə korifey sənətkarlar bəxş etmişdir.

Musiqimizin məbədi və beşiyi olan füsünkar Şuşada, xalq musiqisini dərindən duyan və ifa edən, ifaçılar yetişmişdir. XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə çevrilmişdir. Şuşanı "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" adlandırırdılar [26, s.32]. Musiqi onun hər daşına, qalasına, abı-havasına hopmuşdur. Şuşa musiqiçiləri Azərbaycan musiqisinin

tarixini yaradırlar və onu yalnız vətənlərində deyil, digər Şərq ölkələrində də təqdim edirlər [26, s.10]. Şuşa-Xurşid Banu Natəvanın, Mir Möhsün Nəvvabın, ifaçılardan Xarrat Qulunun, Hacı Hüsünün, Sadıqcanın, Məşədi İsinin, Əbdülbağı Zülalovun, Cabbar Qaryağdıoğlunun, Keçəçi oğlu Məmmədin, Məşədi Məmməd Fərzəliyevin, İslam Abdullayevin, Seyid Şuşinskinin, Bülbülün, Zülfi Adıgözəlovun, Xan Şuşinskinin, Rəşid Behbudovun, Məşədi Cəmil Əmirovun, Qurban Pirimovun, bəstəkarlardan Üzeyir Hacıbəyovun, Zülfüqar Hacıbəyovun, Fikrət Əmirovun, Niyazinin, Əfrasiyab Bədəlbəylinin, Soltan Hacıbəyovun, Əşrəf Abbasovun, Süleyman Ələsgərovun vətənidir [25, s.12].

Çalğı alətləri xalqların mədəniyyətinin mühüm göstəricilərindən biridir. Onların müxtəlif növlərinin geniş istifadəsi, şübhəsiz əsrlər boyu formalaşan və inkişaf edən zəngin, özünəməxsus incəsənətin olmasına dəlalət edir.[1, s.3].Çalğı alətləri musiqi mədəniyyətinin inkişafında, eləcədə insanların mənəvi dünyasının təşəkkül tapmasında əsas rol oynamışdır.

Zəngin musiqi irsinə malik xalqımızın milli ruhunu oxşayan və ürəkləri ecazkar səsi ilə riqqətə gətirən Azərbaycan tarı musiqi alətləri xəzinəmizin haqlı olaraq tacı hesab olunur. İki aktava yarım səsə malik olan tarın texniki imkanları insan səsinə yaxın olduğundan onun səsi melodik baxımdan bütün musiqi alətlərindən yüksəkdə durur. Bu səbəbdən də tarda milli mənsubiyyətindən asılı olmayaraq istər klassik, istərsə də müasir üslubda səslənən xalq və bəstəkar mahnılarını, rəqslərini ifa etmək imkanları başqa alətlərlə müqayisədə daha genişdir [6, s.2].



Qurban Pirimovun Məşədi Məmməd Fərzəliyev və Saşa Oqanezaşvili ilə. Milli Azərbaycan Tarixi Muzeyi, Etnoqrafiya fondu.

Belə istedadlı sənətkarlarımızdan biridə tarzən Qurban Baxşəli oğlu Pirimovdur. Qurban Pirimov 1880-ci ilin oktyabrın 30 da Şuşa qəzasının Abdal Gülablı qəzasında dünyaya gəlmişdir. Onun ifaçılıq fəaliyyəti XIX əsrin sonlarına təsadüf edir. Tara olan sonsuz həvəs və məhəbbətindən, tar sənətini mükəmməl şəkildə öyrənən Qurban Pirimov on beş yaşında Qarabağda artıq tanınmış bir tarzən hesab olunurdu. Onun bir musiqiçi kimi tanınmasında Aşıq Abbasqulunun, tarzən kimi yetişməsində Mirzə Sadığın-Sadıqcanın, daha çox tanınmasında Segah İslamın-İslam Abdullayevin unudulmaz zəhməti olmuşdur [22, s.27].

Musiqi tariximizdə məşhur olmuş Sadıqcandan sonra, Qurban Pirimov ilk solo ifa edən tarzən olmuşdur. Belə ki, o, həm solo, həm üçlükdə, həm də orkestr tərkibində fəaliyyət göstərmişdir. Qurban Pirimov dramatik və musiqili səhnə əsərlərində tarda müşayiət etmişdir. O, Üzeyir Hacıbəyovun 1908-ci ildə ilk dəfə tamaşaya qoyulan "Leyli və Məcnun" əsərində orkestrin solisti olmuş, tarda ifa etmişdir. Azərbaycanın professional musiqisinin inkişafında müstəsna rolu danılmazdır. O həmçinin pedaqoji fəaliyyətlədə məşğul olmuşdur. Məşhur Qarabağ aşığı Valehin nəticəsi olan Qurban Pirimov böyük sənətə "Sudan gələn sürməli qız"

əlifbası ilə başlamışdır. Müəllimi Sadıqcanın xeyir-duasını alan 15 yaşlı Qurban Qarabağ toylarında məşhur xanəndələri müşayət edir. Belə toyların birində xanəndə İslam Abdullayev Qurbanın ifasını bəyənir və onu özünə tarzən götürür. Gəncə toylarının birində isə xalq müğənnisi Cabbar Qaryağdıoğlu onun tar çalmağını bəyənir və İslam Abdullayevin razılığı ilə Qurbanı Bakıya gətirir.O,1905-ci ildə Cabbar Qaryağdıoğlu və Saşa Oqanezaşvili ilə birgə musiqi üçlüyü yaratmış və həmin muğam üçlüyü fəaliyyətini 20 ilə qədər davam etdirmişdir. 1905-ci il Qurban Pirimovun taleyində uğurlu tarix olur. Həmin fəaliyyəti dövründə məşhurlaşır və müxtəlif yerlərdə [Zaqafqaziya, Orta Asiya, Kiyev, Moskva və İranda] qastrol səfərlərində olur. Qurban Pirimov muğam sənətinin kamil bilicisi olmuş, ifaçılıqda özünəməxsus üslub yaratmış, tarda yeni xallar yaratmışdır. Onun opera sənətimizin inkişafındada müstəsna rolu olmuşdur.

Qurban Primovun ifa etdiyi muğamlar 1906-1916 cı illər ərzində Riqa, Varşava, Kiyev şəhərlərində "Potte", "Sport-Rekord", "Qrammafon" firmaları tərəfindən qramafon valına yazılmışdır."Sport-Rekord" firması tərəfindən yazılmış bu vallar xeyli sayda satışa buraxılmışdır. Bu valların musiqimizin tarixində çox böyük rolu olmuşdur. Təqdirəlayiqdir ki, bu firma qramafon vallarının kataloqunu da kitabça şəklində çap etdirmişdir [22, s.30].

XX əsr Azərbaycan musiqi mədəniyyətinin görkəmli xadimləri içərisində istedadlı ifaçı və mahir tarzən Qurban Pirimov öz yaradıcılığını Azərbaycan xalq musiqisinin sağlam ənənələri üzərində qurmuş, ifaçılıq prinsipləri isə musiqi sənətinin yüksək bədii ideyaları və tərəqqipərvər, demokratik istiqamət əsasında inkişaf etdirmişdir. Xalqın mənəvi aləmini tar havaları ilə zənginləşdirən Qurban Pirimov öz ifaları ilə Azərbaycan musiqi mədəniyyətini bir çox ölkədə təbliğ etmişdir.



Qurban Pirimov. Milli Azərbaycan Tarixi Muzeyi, Etnoqrafiya fondu.

Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya, Sənədli mənbələr və Hədiyyələr və Xatirə əşyaları fondunda (EF 5367-Qramafon, EF 5809-Dəf, EF 5374-Fotoşəkil, EF 5375-Fotoşəkil, EF 5375a-Fotoşəkil, EF 5376- Fotoşəkil, EF 5377- Fotoşəkil, EF 5378-Fotoşəkil, EF 5379-Fotoşəkil, EF 5380-Fotoşəkil, EF 5381- Fotoşəkil, EF 5382- Fotoşəkil, EF 5383- Kitab, EF 5384-Afişa, EF 5385-Afişa, EF 5386-Fotoşəkil, EF 5387-Afişa), Sənədli Mənbələr fondunda (SMF 160/1-Proqram, SMF 160/2-Proqram, SMF 160/3-Fəxri fərman, SMF 160/4-

Fəxri fərman, SMF 160/5-Fəxri fərman, SMF 160/6-Fərman,SMF 160/7-Fərman, SMF 160/8-Fəxri fərman, SMF 160/9-Fərman, SMF 160/10-Fərman, SMF 160/ 11-Fəxri fərman, SMF 160/12-Proqram, SMF 160/13-Teatr təbriki, SMF 160/14-Fərman, SMF 160/15-Fıxri fərman, SMF 160/16-Fəzri fərman) və Hədiyyələr və Xatirə əşyaları fondunda (HXƏF 5431-Qəlyan,HXƏF 5432-Arxalıq, HXƏF 5433-Dabankeş, HXƏF 5434-Kişi kəməri, HXƏF 5435-Çuxa, HXƏF 5436-Papaq, HXƏF 5437-Şamdan) Qurban Pirimova məxsus kolleksiya qorunur. Bu materiallar qramafon, dəf, müştük, arxalıq, əl ağacı (çəlik), kişi kəməri, dabankeş müxtəlif foto şəkillər, fəxri fərmanlar və afişalardır. Bu eksponatlar içərisində diqqəti cəlb edən Etnoqrafiya fondunda mühafizə edilən qramafondur. Bu qramafon tarzən Qurban Pirimova ifa etdiyi Azərbaycan melodiyasını qramafon plastinkasına yazılması münasibəti ilə Varşavada hədiyyə edilib. Qurban Pirimova məxsus digər eksponatlardan çuxa və dəfdir. Etnoqrafiya fondunda qorunan, sağanağı balıq dərisindən, metal halqalar və zınqırovdan ibarət, xaricinə bafta çəkilmiş bu dəfi Azərbaycanın görkəmli xanəndəsi Cabbar Qaryağdıoğlu Qurban Pirimova hədiyyə etmişdir. Boz rəngli [qabardin]şal parçadan, astarı yundan, boynu və qolları qaragül dəridən olan çuxa da Hədiyyələr və Xatirə əşyaları fondunda qorunur. Sənədli Mənbələr fondunda isə sənətkara aid fotoşəkillər və dəvətnamələr mühafizə edilir.

Nəticə: Xalq musiqi ifaçılığının ən qüdrətli nümayəndələrindən biri olan, Azərbaycan musiqi incəsənətinin şərəfini yüksəklərə qaldıran, Opera və Balet Teatrında pedaqoji fəaliyyətini uğurla davam etdirən, gənc tarzənlərin də səmimi, müdrik, xeyirxah dostu Qurban Pirimov özündən sonra təqlidçilər yox, əsl davamçılar yetişdirmişdir. İfası ilə insanı heyran edən, əvəzsiz tarzən Qurban Pirimov 70 illik yaradıcılıq fəaliyyətində Azərbaycanın musiqi sənəti tarixində təkrarsız izlər qoymuşdur. Düşünürük ki, Qurban Pirimov yaradıcılıq irsi çox tədqiqata cəlb olunmadığına görə, məqalə həm Azərbaycan musiqi tarixi, həmdə Qurban Pirimov yaradıcılığını öyrənənlər üçün mühüm əhəmiyyət kəsb edəcək. Qeyd etmək yerinə düşər ki, haqqında danışdığımız bir çox eksponatı Milli Azərbaycan Tarixi Muzeyinin yeni qurulmuş elmi ekspozisiyasında görmək olar.

Mənbə və ədəbiyyat

1. Abdullayeva, S.A. Azərbaycan xalq çalğı alətləri (musiqişünaslıq-orqanoloji tədqiqat). Bakı: “Adiloğlu”, 2002, 454 s.
2. Afişa. Qurban Pirimovun anadan olmasının 75-illiyinə və yaradıcılığının 50-illiyinə həsr olunmuşdur. MATM EF, inv. №5385
3. Afişa. Qurban Pirimovun, əmək fəaliyyətinin 25-illiyi qarşısında anons. MATM EF, inv. №5387.
4. Afişa. Qurban Pirimovun, əmək fəaliyyətinin 25-illiyinə həsr olunmuşdur. MATM EF, inv. №5384.
5. Arxalıq. Kişi geyimi. MATM HXƏF, inv. №5432.
6. Cəfərov E. “Azərbaycan tarının atası – ulu babam böyük Sadıqcan” // Вышка. - 1992. 19 fevral 2021-ci il.
7. Çuxa. Boz yaşıl şal parçadan. MATM HXƏF, inv. №5435.
8. Dabankeş. MATM HXƏF, inv. №5433.
9. Dəf. Cabbar Qaryağdıoğlu tərəfindən Qurban Pirimova hədiyyə edilib. MATM EF, inv. №5809.
10. Fəxri fərman. AHİŞ Rəyasət Heyəti M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının 50 illiyi münasibətilə onun orkestrinin solisti Qurban Pirimova teatrın ictimai fəal iştirakına görə vermişdir. MATM SMF, inv. №160/16.
11. Fəxri fərman. Azərbaycan İncəsənət İşçiləri İttifaqı və Respublika Hərbi Hamilik Komissiyası Qurban Pirimova Qızıl ordu və Hərbi Dəniz Donanması üzərində fəal və faydalı mədəni hamilik işi apardığına görə vermişdir. MATM SMF, inv. №160/5.
12. Fəxri fərman. Azərbaycan İncəsənət İşçiləri İttifaqının mərkəzi İdarəsi Qurban Pirimova Qızıl ordu və Donanma döyuşçu və komandirlərinə faydalı mədəni-bədii xidmət göstərdiyinə görə vermişdir. MATM SMF, inv. №160/3.

13. Fəxri fərman. Azərbaycan İncəsənət İşçiləri İttifaqının Mərkəzi İdarəsi Qurban Pirimova Qızıl ordu və Donanma döyuşçu, komandir və rəhbər heyətinə, habelə XDİK qoşunu hissələrinə faydalı mədəni-bədii xidmət göstərdiyinə görə vermişdir. MATM SMF, inv. №160/4.
14. Fəxri fərman. Bakı Hərbi Dairəsinin Siyasi İdarəsi Qurban Pirimova Böyük Vətən müharibəsi zamanı və sonrakı dövrdə apardığı fəal hərbi hamilik işinə görə və Qələbə bayramı münasibətilə vermişdir. MATM SMF, inv. №160/9.
15. Fəxri fərman. Bakı Sovetinin İcraiyyə Komitəsi Qurban Pirimova V çağırış SSRİ Ali Sovetinə seçkiləri zamanı Bakı zəhmətkeşlərinə mədəni xidmət işlərində fəal iştirakına görə vermişdir. MATM SMF, inv. №160/15.
16. Fəxri fərman. SSRİ Xalq Komissarları Şurası nəzdində İncəsənət İşləri Komitəsi və SSRİ İncəsənət İşçiləri Həmkarlar İttifaqı Qurban Pirimova Böyük Vətən müharibəsi dövründə Qırmızı Ordu, Hərbi Dəniz Donanması və XDİK qoşunları hissələri üzərindəki əla mədəni hamilik işinə görə vermişdir. MATM SMF, inv. №160/8.
17. Fəxri fərman. SSRİ Nazirlər Şurası nəzdində İncəsənət İşləri Komitəsi və SSRİ İncəsənət İşçiləri Həmkarlar İttifaqı Qurban Pirimova SSRİ Silahlı Qüvvələri üzərində mədəni hamilık sahəsində xidmətlərinə görə vermişdir. MATM SMF, inv. №160/11.
18. Fərman Azərbaycan SSR- nin ərazisində hərbi hissələrin qarnizonlarında apardığı fəal mədəni hamilik işinə görə Qurban Pirimova verilmişdir. MATM SMF, inv. №160/10.
19. Fərman. Azərbaycan SSR Əmək Ehtiyyatları İdarəsi Qurban Pirimova sənət və fabrika-zavod şagirdlərinin ümumbakı bədii özfəaliyyət baxışına hazırlanmasında yaxşı hamilik işinə görə vermişdir. MATM SMF, inv. №160/7.
20. Fərman. Azərbaycan SSR xalq artisti Qurban Pirimova Sovet ordusu üçün keçirilən hamilik konsertlərində fəal iştirakına görə, habelə anadan olmasının 75 illiyi və yaradıcılıq fəaliyyətinin 60 illiyi münasibətilə verilmişdir. MATM SMF, inv. №160/14.
21. Fərman. Zaqafqaziya Hərbi Dairəsinin Hərbi Şurası Qurban Pirimova fəal mədəni hamilik işinə görə vermişdir. MATM SMF, inv. №160/6.
22. İsaqoğlu V. Qurban Pirimov. Bakı: "Şərq-Qərb", 2017, 199 s.
23. Kişi kəməri. Dəridən. MATM HXƏF, inv. №5434.
24. Kitab. Əfrasiyab Bədəlbəylinin Qurban Pirimov haqqında. MATM EF inv. №5383.
25. Qarabağ bülbülləri – 50. "Yaralı səs", Ədəbi-kütləvi toplu. Bakı: 2021.
26. Qarabağın incisi – Şuşa. Bakı: 2021.
27. Qəlyan. MATM HXƏF, inv. №5431.
28. Qramafon. Tarzən Qurban Pirimova Varşavada hədiyyə edilib. MATM EF, inv. №5367.
29. Qurban Pirimovun gəncliyi. Fotoşəkil. MATM EF, inv. №5386.
30. Qurban Pirimov mikrofon qarşısında. Fotoşəkil MATM, EF inv. №5376.
31. Qurban Pirimov və bəstəkar Qliyer Bakıda. Fotoşəkil MATM EF, inv. №5377.
32. Qurban Pirimov və bir qrup incəsənət xadimləri. Fotoşəkil. MATM EF, inv. №5375.
33. Qurban Pirimov və Cabbarqaryağdıoğlu. Fotoşəkil MATM EF, inv. №5381.
34. Qurban Pirimov və Hüseyinağa Hacıbabəyov. Fotoşəkil MATM EF, inv. №5380.
35. Qurban Pirimov və Mahmud Eyvazov. Fotoşəkil MATM EF, inv. №5382.
36. Qurban Pirimov, Məşədi Məmməd Fərzəliyev və Saşa Oqanezaşvili. Fotoşəkil. MATM EF, inv. №5374.
37. Qurban Pirimovun gəncliyi. Fotoşəkil MATM EF, inv. №5378.
38. Qurban Pirimovun müharibədən sonrakı şəkili. Fotoşəkil MATM EF, inv. №5379.
39. Məhşur üç tarzən: Qurban Pirimov, Hacı Məmmədov və S. Seyranov. Fotoşəkil. MATM EF, inv. №5375a.
40. Papaq. Qaragül və yun parçadan. MATM HXƏF, inv. №5436.
41. Proqram. D.Bünyadzadə adına Türk Akademik Teatrında tarzən Qurban Pirimovun yaradıcılıq fəaliyyətinin 25 illiyi (1904-1929) münasibətilə keçirilmiş yubiley gecəsinə aiddir. MATM SMF, inv. №160/2.

42. Proqram D.Bünyadzadə adına Türk Akademik Teatrında tarzən Qurban Pirimovun yaradıcılıq fəaliyyətinin 25 illiyi (1904-1929) münasibətilə keçirilmiş yubiley gecəsinə aiddir. MATM SMF, inv. №160/1.
43. Proqram. Azərbaycan SSR xalq artisti Qurban Pirimovun anadan olmasının 75 illiyinə və yaradıcılıq fəaliyyətinin 60 illiyinə həsr edilmiş gecə. MATM SMF, inv. №160/12.
44. Şamdan. MATM HXƏF, inv. №5437.
45. Şuşinski F. Azərbaycan xalq müsiqiçiləri. Red.: T.Əhmədov. Bakı: "Yazıçı", 1985, 480 s.
46. Teatr. M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrı kollektivinin Azərbaycan xalq artisti Qurban Pirimova mənzum (bir bənd) təbriki. Azərbaycan və rus dillərində. MATM SMF, inv. №160/13.

Məqalənin redaksiyaya daxilolma tarixi: 20.11.2023

Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 22.11.2023

Məqalənin çapa qəbul olunma tarixi: 08.12.2023